«Dövlət qeydiyyatına alınmışdır»

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində

«02» oktyabr 2024-cü il

Notariat, qeydiyyat və reyestr
baş idarəsinin rəisi:

Elşad Məmmədli ____________________

«Təsdiq edilmişdir»

Ümumi Yığıncağın 26.08.2024-cü il tarixli qərarı ilə

Qanuni təmsilçi:

Əliyev Əli Vasif oğlu

____________________

# "Rəqəmli və Audiovizual Yayım Sənayesi" ictimai birliyinin NİZAMNAMƏSİ

(3-cü redaksiyada)

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. **"Rəqəmli və Audiovizual Yayım Sənayesi" ictimai birliyi** (bundan sonra - Birlik adlandırılacaq) ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərinin hüquq bərabərliyi prinsipləri əsasında yaradılan, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvlərinin arasında bölməyən qeyri-hökumət təşkilatıdır və fəaliyyəti Azərbaycan Respublikasının ərazisini əhatə edir.
1.2. Birliyin Azərbaycan dilində tam adı – "Rəqəmli və Audiovizual Yayım Sənayesi" ictimai birliyi, qısadılmış adı - "RAYS" İB-dir. Birliyin İngilis dilində tam adı – "Digital and Audiovisual Broadcasting Industry" Public Association, qısadılmış adı – "DABI" PA-dır.
1.3. Birlik öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, Mülki Məcəlləsi, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunları, digər normativ hüquqi aktlar və bu Nizamnamə əsasında həyata keçirir.
1.4. Birlik 22 dekabr 2017-ci il tarixdə 1117-Q61-3548 nömrə ilə "Teleradio İstehsalçıları, Yayımçıları və Reklamçıları Assosiasiyası" ictimai birliyi adı ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.
Birliyin müstəqil balansı, üzərində adı yazılmış möhürü, ştampı, Azərbaycan Respublikasının banklarında hesablaşma hesabı və digər rekvizitləri vardır.
1.5. Birlik öz məqsədini həyata keçirmək üçün qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan (akkreditasiyadan) keçir.
1.6. Birliyin yerləşdiyi hüquqi ünvan: Bakı şəhəri, Səbail rayonu, Azərbaycan prospekti, ev 23, mənzil 70.

## II. BİRLİYİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

2.1. Birliyin əsas məqsədi əlaqəli hüquqların subyektləri olan ifaçıların, fonoqram istehsalçılarının, yayım təşkilatlarının və rəqəmsal şəbəkələrdə ifaçıların, fonoqram istehsalçılarının və müəlliflik hüquqlarının subyekti olan müəlliflərin əmlak hüquqlarının idarəçiliyini həyata keçirməkdir.
2.2. Birlik aşağıdakı sahələr üzrə əmlak hüquqlarının kollektiv idarəçiliyini həyata keçirir:

- əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyini Birliyə vermiş ifaçıların, fonoqram istehsalçılarının, yayım təşkilatlarının və rəqəmsal şəbəkələrdə müəllif, ifaçı və fonoqram istehsalçılarının əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyini həyata keçirmək;
- ifaçıların, fonoqram istehsalçılarının, yayım təşkilatlarının və rəqəmsal şəbəkələrdə müəllif, ifaçı və fonoqram istehsalçılarının əmlak hüquqlarının idarəçiliyi çərçivəsində onların əsərlərin, ifalarının, fonoqramlarının və verilişlərinin "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunda və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunda göstərilmiş hallarda istifadəsinə görə müvafiq olaraq qonorarın alınmasını təmin etmək;
- şəxsi məqsədlər üçün fonoqramın gəlir götürmədən surəti çıxarılarkən ifaçıların və fonoqram istehsalçılarının qonorar almaq hüququnu həyata keçirmək;
- əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüququnun səmərəli hüquqi müdafiə sistemlərinin təmini sahəsində kollektiv maraqların qorunması istiqamətində fəaliyyət göstərmək;
- medianın özünü tənzimlənməsi, televiziya və internet auditoriyasının ölçülməsi, piratlığa qarşı mübarizə və əqli mülkiyyət hüquqlarının qorunması sahəsində sənaye iştirakçıları və müvafiq dövlət qurumları ilə əməkdaşlıq etmək;

- hüquq sahiblərinə əmlak hüquqlarının kollektiv şəkildə idarə edilməsi üçün verdiyi səlahiyyətlər əsasında dəstək olmaq.

2.3. Birlik səlahiyyətləri çərçivəsində aşağıdakı funksiyaları həyata keçirir:

- lisenziya verilən hallarda istifadəçi ilə qonorarın məbləğlərini və başqa şərtləri razılaşdırır;
- idarə edilməsi ilə məşğul olduğu hüquqlardan istifadə üçün istifadəçilərə lisenziya verir;
- lisenziya vermədən qonorar yığılması ilə məşğul olduğu hallarda istifadəçilərlə qonorarın məbləğlərini razılaşdırır;
- lisenziya üzrə nəzərdə tutulmuş qonorarı yığır;
- yığılmış qonorarı onun təmsil etdiyi əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahibləri arasında bölüşdürür və ödəyir;
- idarə etdiyi hüquqların qorunması üzrə vacib olan digər hüquqi hərəkətləri edir;
- əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahiblərinin verdiyi səlahiyyətlərə uyğun olaraq digər işləri həyata keçirir.

2.4. Birliyin aşağıdakı əsas vəzifələri vardır:

- yığılmış qonorarı əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahibləri arasında bölmək və qanuni sahiblərinə ödəmək; bununla birlikdə təşkilatın yığılmış qonorardan qonorarın yığılmasına, bölünməsinə və ödənilməsinə çəkdiyi xərcləri ödəmək üçün lazım olan məbləği, həmçinin əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahiblərinin razılığı və maraqları əsasında bu təşkilat tərəfindən yaradılan xüsusi fondlara yönəldilən məbləği çıxmaq hüququ vardır;
- yığılan qonorarı bundan əvvəlki yarımbənddə göstərilən məbləği çıxarmaqla, əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüququnun obyektlərinin faktiki istifadəsinə uyğun şəkildə bölmək və müntəzəm olaraq ödəmək;
- qonorarı ödəməklə birlikdə əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahiblərinə onların hüquqlarından istifadə barədə məlumat vermək;
- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə illik haqq ödəmək;
- Birliyə əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüququnun obyektlərindən istifadəyə görə qonorarı yığmaq səlahiyyəti verməmiş əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahiblərinin onlara çatası qonorarı tələb etmək, həmçinin özlərinin Birlik tərəfindən istifadəyə verilmiş əlaqəli hüquqlarının və rəqəmsal şəbəkələrdə müəlliflik hüququnun obyektlərini lisenziyadan çıxarmağı tələb etmək hüququ vardır;
- Birlik "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 43-cü maddəsinin 3-cü hissəsində göstərilən məlumatları Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə təqdim edir;
- Yalnız qanunvericilikdə nəzərdə tutulan qaydada dövlət orqanlarında (qurumlarında), ictimai təşkilatlarda, məhkəmələrdə və digər təşkilatlarda üzvü olduğu əlaqəli hüquqlarının sahiblərinin, rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahiblərinin və ya onların hüquqi varislərinin qanuni maraqlarını təmsil edir;
- Birlik üzvlərinə və ya onların hüquqi varislərinə əlaqəli hüquqlarının və rəqəmsal şəbəkələrdə müəlliflik hüququnun obyektlərindən istifadə olunması ilə bağlı hüquqi yardım edir;
- rəqəmsal şəbəkələrdə müəllif, ifaçı və fonoqram istehsalçılarının əmlak hüquqların kollektiv əsasda idarəçiliyini təşkil edir, hüquqların pozulduğu, o cümlədən hüquqlardan istifadəyə qoyulmuş məhdudiyyətləri təmin edən texniki müdafiə vasitələrinin qeyri-qanuni dağıdıldığı, eləcə də hüquq sahibinin razılığı olmadan

hüquqların idarə edilməsi haqqında informasiyanın ləğvi, yaxud dəyişdirildiyi hallarda müvafiq işlər yerinə yetirir.

2.5. Bu Nizamnamədə nəzərdə tutulmuş vəzifələri həyata keçirmək üçün Birlik:

- müvafiq istiqamətdə xarici ölkələrin müsbət təcrübəsini öyrənir;
- televiziya sənayesi, media məzmunu və reklam bazarı istiqamətində müvafiq beynəlxalq konfranslarda və digər bu kimi tədbirlərdə iştirak edir;
- Azərbaycan Respublikasının ərazisində televiziya, radio, media məzmunu və reklam sahəsində müvafiq dövlət proqramları üzrə əlaqələr qurur və bu proqramlarda iştirak edir, o cümlədən bu sahədə rəqabət qabiliyyətliliyinin artırılması üçün müxtəlif layihələr həyata keçirir;
- əqli mülkiyyət hüquqlarının müdafiəsi çərçivəsində dövlət siyasətinin realizəsində iştirak etmək məqsədilə müvafiq səlahiyyətli dövlət qurumları və ya yerli/beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;
- elmi araşdırmalar və sosioloji sorğular aparır, müxtəlif kurslar və seminarlar, dəyirmi masa və görüşlər, sərgilər və konfranslar təşkil edir, xeyriyyə marafonları, digər mədəni-kütləvi tədbirlər keçirir;
- televiziya, radio, film istehsalı və reklam sahələrində illik mükafatlandırma mərasimlərini keçirir;
- ölkədə və xarici dövlətlərdə fəaliyyət göstərən müxtəlif qeyri-hökumət təşkilatları, regional və beynəlxalq qurumlarla əlaqə qurur və onlarla birlikdə layihələr həyata keçirir;
- məqsədləri və fəaliyyəti barədə məlumatı sərbəst yayır;
- qanunvericiliklə nəzərdə tutulmuş qaydada çap mediası təsis edir, xarici ölkələrdə fəaliyyət göstərən təşkilatların onun məqsəd və mənafelərinə zidd olmayan tədbirlərinə qoşulur, təcrübə və nümayəndələr mübadiləsi həyata keçirir;
- Azərbaycan Respublikasının aidiyyəti dövlət, bələdiyyə orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;
- Nizamnamə ilə müəyyən edilmiş məqsəd və vəzifələrini həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər fəaliyyətləri həyata keçirir.

2.6. Birlik üzvlərinin reyestrinin aparılmasını təmin edir.

2.7. Birlik Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Milli Məclisi və bələdiyyə seçkilərində iştirak edə bilməz.

## III. BİRLİYİN HÜQUQLARI

3.1. Birlik aşağıdakı hüquqlara malikdir:

- öz adından əqdlər bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək;
- əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüququnun obyektlərindən istifadə edən şəxslərdən istifadə edilən obyektlər və gəlirləri haqqında müvafiq qaydada təsdiq olunmuş proqram və digər sənədlər almaq, həmçinin müəyyən olunmuş müddətdə qonorarı ödəməyi tələb etmək;
- fəaliyyəti barədə məlumatı sərbəst yaymaq;
- Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis etmək;
- müxtəlif təşkilatlara üzv olmaq, beynəlxalq təşkilatlarla əlaqələr saxlamaq;
- Azərbaycanın və xarici ölkələrin əlaqəli hüquqlarının və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyini eyni sahədə həyata keçirən təşkilatlarla müxtəlif müqavilələr bağlamaq;
- banklarda hesablar açmaq və hesablaşmalar aparmaq;

- müstəqil balansa, möhürə, ştampa və digər rekvizitlərə malik olmaq;
- Birliyin yaradılması məqsədlərinə nail olmasına yönəldilmiş sahibkarlıq fəaliyyətini həyata keçirmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

## IV. BİRLİYİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏETMƏ ORQANLARI

4.1. Birliyin idarəetmə orqanları aşağıdakılardır:
- Ümumi Yığıncaq;
- İdarə Heyəti;
- Direktor;
- Nəzarət-Təftiş Komissiyası.

4.2. Birliyin ali idarəetmə orqanı olan Ümumi Yığıncaq ildə bir dəfədən az olmayaraq çağırılır. Tələb olunduğu halda növbədənkənar Ümumi Yığıncaq çağırıla bilər.
4.3. Ümumi Yığıncaq Birliyin İdarə Heyətinin, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.
4.4. Ümumi Yığıncağın sədri yığıncağın katibini təyin etməklə yanaşı Ümumi Yığıncağa sədrlik edir.
4.5. Ümumi Yığıncaqda qəbul edilən qərarları özündə əks etdirən və Ümumi Yığıncağın sədri və katibi tərəfindən imzalanan Ümumi Yığıncağın protokolu tərtib edilir.
4.6. Ümumi Yığıncaq yalnız Birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab olunur.
4.7. Ümumi Yığıncağın keçirilmə tarixi, yeri və vaxtı barədə Birliyin üzvlərinə gündəliyi əlavə edilməklə ən azı bir ay əvvəl yazılı qaydada və ya media vasitəsi ilə və ya Birliyin internet səhifəsində elan verilməklə bildirilir.
4.8. Ümumi Yığıncağın iclası fövqəladə vəziyyət, pandemiya və ya şəxsən iştirak edərək iclasların keçirilməsinə imkan verməyən və ya mane olan tədbirlər və rəsmi məhdudiyyətlər, habelə şəxsən iştirak etməyin mümkün olmadığı və ya İdarə Heyətinin qərarı ilə digər hallarda onlayn şəkildə keçirilə bilər. Onlayn şəkildə iştirak edən üzvlər Ümumi Yığıncaqda iştirak etmiş hesab edirlər. Ümumi Yığıncağın iclası eyni vaxtda həm şəxsən, həm də onlayn şəkildə iştirak edərək həyata keçirilə bilməz.
4.9. İdarə Heyəti birbaşa onlayn iştirakın, xüsusi qeydiyyatın, səsvermə tələbləri və prosedurlarının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlayn qoşulma ilə iclasda iştirak etmək üçün hər bir üzv iclasın çağırılması üçün yazılı bildirişdə olan göstərişlərə əməl edərək Birliyin üzvü qismində qeydiyyatı üçün istifadə edilən şəxsi elektron ünvanı ilə qeydiyyatdan keçməlidir. Üzv elektron bəyanatlarını təqdim etməklə və Ümumi Yığıncaqda iştirak etməklə bu bəyanatların qanunvericilik prinsiplərinə uyğun olaraq əlyazma imzasına bərabər tutulması ilə razılaşır.
4.10. Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:
- Birliyin Nizamnaməsinin qəbulu və ona əlavə və dəyişikliklərin edilməsi;
- Birliyin fəaliyyətinin əsas istiqamətlərinin müəyyən edilməsi, onun əmlakının formalaşması və istifadə prinsiplərinin müəyyən edilməsi;
- Birliyin icra orqanlarının formalaşdırılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
- Üzvlük haqqının miqdarının və ödənilməsi qaydalarının təsdiq edilməsi;
- İllik hesabatın təsdiqi;
- Birliyin maliyyə planının (büdcəsinin) təsdiqlənməsi və ona dəyişikliklərin edilməsi;
- Başqa təşkilatlarda iştirakla bağlı qərarların qəbul edilməsi;
- Birliyin yenidən təşkili və ləğvi edilməsi;

- Nəzarət-Təftiş Komissiyasının seçilməsi və onun səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
- İdarə Heyətinin və Nəzarət-Təftiş Komissiyasının Birliyin fəaliyyəti haqqında hesabatlarının təsdiq edilməsi.

4.11. Ümumi Yığıncaqda müzakirə olunan məsələlər haqqında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səsə malikdir. Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi və təşkilatın yenidən təşkili və ləğvi barədə qərarın qəbulu üçün 2/3 səs çoxluğu tələb olunur.

## V. İdarə Heyəti

5.1.Birliyin icra orqanı İdarə Heyətdir. İdarə Heyətinin tərkibi 5 (beş) nəfərdən ibarət olub Ümumi Yığıncaq tərəfindən 3 (üç) il müddətinə seçilir. İdarə Heyətinin üzvünün fəaliyyətinə vaxtından əvvəl xitam verildikdə, onun əvəzinə seçilmiş üzvün səlahiyyət müddəti İdarə Heyətinin səlahiyyət müddəti ilə məhdudlaşır.

5.2. İdarə Heyətində hər bir hüquqi şəxs üzvünün yalnız bir nümayəndəsi iştirak edə bilər.

5.3. Yeni seçilmiş İdarə Heyəti seçkidən sonrakı 1 (bir) ay ərzində ilk iclasını keçirir.

5.4. İdarə Heyətinin iclasları zəruri hallarda keçirilir və İdarə Heyətinin üzvləri tərəfindən və ya İdarə Heyətinin sədrinin təşəbbüsü ilə çağırılır.

5.5. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu orada iştirak etdikdə səlahiyyətlidir.

5.6. İdarə Heyətinin iclaslarında qərarlar iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. İdarə Heyətinin qəbul etdiyi qərarlar İdarə Heyətinin sədri tərəfindən imzalanaraq qərar formasında rəsmiləşdirilir.

5.7. İdarə Heyəti aşağıdakı səlahiyyətlərə malikdir:

- mövcud qanunvericiliyə və bu Nizamnaməyə uyğun olaraq Birliyin prosedur qaydalarını müəyyən etmək və ümumi fəaliyyətini təşkil etmək;
- iclasın tarixi, vaxtı, yeri və gündəliyini müəyyən etməklə qanunla və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Ümumi Yığıncağın iclaslarını hazırlamaq və çağırmaq;
- maliyyə planı (büdcə) layihəsini hazırlamaq və Ümumi Yığıncağa təqdim etmək, Ümumi Yığıncaq tərəfindən təsdiq edilmiş büdcəni bölüşdürmək və idarə etmək;
- dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə əlaqə qurmaq;
- direktoru təyin etmək, onun nümayəndəlik səlahiyyətlərinin əhatə dairəsini və ona verilən əmək haqqının məbləğini müəyyən etmək;
- Ümumi Yığıncağın iclasına iki həftə qalmış Birliyin fəaliyyəti haqqında hesabatı hazırlamaq və Ümumi Yığıncağa təqdim etmək;
- Birliyin üzvlüyünə qəbul və üzvlükdən xaric etmək;
- əlaqəli hüquqlardan istifadənin bütün növləri və müəllif, ifaçı və fonoqram istehsalçılarının rəqəmsal şəbəkələrdə hüquqlarından istifadəsi üzrə ödənilən qonorarın məbləğlərini təsdiq etmək, onlara dəyişikliklər və əlavələr etmək;
- Birliyin müxtəlif proqramlarının maliyyələşdirilməsi üçün məbləğlər barədə qərarlar qəbul etmək, xüsusi məqsədli fondlar yaratmaq, qrantlar almaq və vermək;
- hüquq sahibləri arasında qonorarın bölüşdürülməsi qaydalarının, o cümlədən müvafiq təqvim ili üçün Birliyin yığılmış qonorardan qonorarın yığılmasına, bölünməsinə və ödənilməsinə çəkdiyi xərcləri ödəmək üçün lazım olan məbləği çıxmaqla, müvafiq tutulmaların ümumi məbləğini təsdiq etmək, onlara dəyişikliklər və əlavələr etmək;
- əmlak hüquqlarını kollektiv əsasda və ya müstəqil şəkildə hüquqları idarə edən digər təşkilatlarla ikitərəfli təmsilçilik müqaviləsinin bağlanması barədə qərar qəbul etmək;
- Birliyin filial və nümayəndəliklərinin yaradılması haqqında qərar qəbul etmək;

- Birlik adından Azərbaycan Respublikasının qanunvericiliyinə və bu nizamnaməyə uyğun olaraq Birliyin mülkiyyətində olan əmlak üzrə hüquqların həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;
- digər orqanların Qanunla və bu Nizamnamə ilə müəyyən edilmiş müstəsna səlahiyyətlərinə aid edilməyən bütün digər məsələləri həll etmək.

5.8. İdarə Heyətinin sədri aşağıdakı səlahiyyətlərə malikdir:

- Birliyin adından etibarnaməsiz fəaliyyət göstərilməsi və Birliyin Azərbaycan və xarici dövlət orqanlarında və digər təşkilatlarda, məhkəmə və digər orqanlarda təmsil edilməsi, Birliyin fəaliyyətinin ümumi idarə edilməsinin həyata keçirilməsi və Birliyin maliyyə, iqtisadi, bank və s. sənədləri üzərində birinci imza hüququna malik olması;
- Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün Birliyin fəaliyyətinin şəffaf və səmərəli həyata keçirilməsi;
- Strateji planın işlənib hazırlanması və Birliyin fəaliyyətinin prioritet istiqamətlərinin müəyyən edilməsi;
- Birliyin maliyyə mənbələrinin və digər aktivlərinin idarə edilməsi və onların Nizamnaməyə uyğun olaraq istifadəsinin təmin edilməsi;
- Birliyin daxili prosedur təlimat/qaydalar layihəsinin hazırlanması və onun təsdiqi üçün İdarə Heyətinə təqdim edilməsi;
- Birliyin təşkilati strukturunun işlənib hazırlanması və təsdiq edilməsi üçün İdarə Heyətinə təqdim edilməsi;
- əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahibləri ilə üzvlük və qonorarların yığılması üzrə müqavilələrinin bağlanması;
- əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının sahiblərinin müxtəlif kateqoriyaları üçün nümunəvi lisenziya müqavilələrinin təsdiq edilməsi;
- Əlaqəli hüquqlardan istifadənin bütün növləri üçün lisenziyaların verilməsi və müəllif, ifaçı və fonoqram istehsalçılarının rəqəmsal şəbəkələrdə hüquqlarından istifadə üçün lisenziyaların verilməsi;
- Birlik adından istənilən növ müqavilələrin bağlanması, müxtəlif sazişlərin və sənədlərin imzalanması, etibarnamələrin verilməsi;
- Birliyin maraqlarına uyğun olaraq xarici agentliklər və beynəlxalq təşkilatlarla işlərin aparılması;
- Direktorun fəaliyyətinə və öhdəliklərinin icrasına nəzarət etməsi;
- Bu Nizamnamənin icrasına, Ümumi Yığıncağın müntəzəmliyinə və qərarlarının yerinə yetirilməsinə nəzarət etməsi;
- Vəsaitlərin qorunması və məqsədəuyğun xərclənməsi üçün tədbirlərin görülməsi;
- Ümumi Yığıncaq tərəfindən həvalə edilmiş və Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələrin yerinə yetirilməsi.

## VI. Direktor

6.1. Direktor İdarə Heyəti tərəfindən 3 (üç) il müddətinə təyin edilir və İdarə Heyətinin əvvəlki maddədə göstərilən qərarı əsasında İdarə Heyətinin sədri Direktorla müqavilə bağlayır və İdarə Heyəti tərəfindən verilmiş onun nümayəndəlik səlahiyyətlərinin dairəsini müəyyən edir.

6.2. Birliyin Direktoru aşağıdakı səlahiyyətlərə malikdir:

- Birliyin və Birliyin filial və nümayəndəliklərinin (əgər varsa) ümumi əməliyyat fəaliyyətini idarə etmək, təşkil etmək, koordinasiya etmək və nəzarət etmək;
- Verilmiş səlahiyyətlər çərçivəsində Birliyi ölkə daxilində və xaricdə təmsil etmək;

- Verilmiş səlahiyyətlər çərçivəsində Birliyin fəaliyyəti ilə bağlı müqavilələr bağlamaq;
- Ümumi Yığıncaqda olan hesabatda xarici əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlarla əlaqələrin qurulması haqqında məlumat vermək, əqdlərin bağlanması və digər qanuni zəruri hərəkətləri icra etmək, İdarə Heyətinin sədri ilə yanaşı Azərbaycan Respublikasında və xaricdə istənilən valyutada bank hesabları açmaq və bağlamaq, habelə Birliyin bütün maliyyə, iqtisadi, bank və digər sənədləri ilə bağlı birinci imza səlahiyyətli şəxs qismində çıxış etmək hüququna malik olmaq;
- Birliyin işçilərinin əmək müqavilələrini bağlamaq, onlara dəyişiklik etmək və xitam vermək, habelə fiziki şəxslərlə predmeti xidmətlərin göstərilməsi olan mülki müqavilələr bağlamaq, qaydalara uyğun olaraq işçiləri stimullaşdırmaq, onlara intizam tənbehi tətbiq etmək və ezamiyyətə göndərmək;
- İşçilərin vəzifə funksiyalarını (vəzifə təlimatlarını) müəyyən etmək və təsdiq etmək;
- Tələb olunduğu halda öz səlahiyyətləri çərçivəsində məhkəmə prosesində və ya digər şəxslər və ya qurumlar qarşısında Birliyi təmsil etmək;
- Daxili nizam-intizamın təşkilini, sənədləşmənin aparılması qaydasını, mühasibat uçotunu, yazışmalar və sair qaydaları təsdiq etmək;
- Birliyin illik büdcəsinin və strateji inkişaf planının hazırlanmasında İdarə Heyətinə köməklik göstərmək, texniki-iqtisadi əsaslandırmaların, proqramların, təhlillərin, konsepsiyaların, qonorarların bölüşdürülmə qaydalarının və digər sənədlərin hazırlanmasında fəal iştirak etmək;
- Əqli mülkiyyətlə bağlı olan ictimai müzakirələrdə iştirak etmək və Birliyin ictimai imicinin formalaşmasına və fəaliyyətinin təşviqinə töhfə vermək.

## VII. NƏZARƏT-TƏFTİŞ KOMİSSİYASI

7.1. Birliyin Nəzarət-Təftiş Komissiyası ("NTK") Birliyin digər orqanlarının və Birlik üzvlərinin fəaliyyətinin Nizamnaməyə uyğunluğuna, habelə Birliyin maliyyə fəaliyyətinə nəzarət edir. NTK üzvlərinin sayı Ümumi Yığıncaq tərəfindən müəyyən edilir. NTK-nın səlahiyyət müddəti 5 (beş) ildir. NTK-nın qərarları sadə səs çoxluğu ilə qəbul edilir.
7.2. NTK üzvləri Birlik üzvləri arasından 3-dən az, 7-dən çox olmayan sayda seçilir.
7.3. NTK sədr və katibi öz üzvləri arasından səlahiyyət müddətinə görə seçir.
7.4. NTK Ümumi Yığıncağa öz fəaliyyəti haqqında hesabat təqdim edir.
7.5. NTK üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. NTK iclaslarında qərarlar iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilir.
7.6. NTK iclasları zərurət olduqda, lakin ildə ən azı 1 (bir) dəfə Birliyin yerləşdiyi yerdə keçirilir. NTK iclasları NTK sədri və ya NTK-in ən azı 2 (iki) üzvü tərəfindən çağırılır. NTK iclasının tarixi, vaxtı və gündəliyi iclası çağıran şəxslər tərəfindən müəyyən edilir. NTK iclaslarının protokolları NTK katibi tərəfindən tərtib edilir.
7.7. NTK 1 (bir) ay müddətində Birliyin orqanları və üzvlərinin müraciətlərinə baxır və cavablandırır.
7.8. Birliyin maliyyə-təsərrüfat fəaliyyətinin planlı üzrə audit ildə 1 (bir) dəfədən az olmayaraq həyata keçirilir.
7.9. Dövlət qeydiyyatına alınmış Birlik Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər. Birlik 10 (on) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə filial və (və ya) nümayəndəliyinin yaradılması haqqında məlumat verməlidir.

## VIII. BİRLİYİN ÜZVLƏRİ VƏ TƏSİSÇİLƏRİ, ONLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

8.1. Əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsini Birliyə təqdim edən Azərbaycanda əlaqəli hüquqların və rəqəmsal şəbəkələrdə müəllifik hüquqlarının sahibləri və ya onların varisləri/hüquqi varisləri, Birliyin Nizamnaməsini tanıyan, onun məqsədlərinin həyata keçirilməsinə dəstək vermək istəyini ifadə edən, bacarığına və hüquq qabiliyyətinə malik olan fiziki və ya səlahiyyətli hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) Birliyin üzvü ola bilər.
8.2. Birliyin təsisçiləri həm də Birliyin üzvü hesab olunurlar. Birliyin təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına çatmış fiziki şəxslər ola bilərlər.
Təsisçilər bərabər hüquqlara malikdirlər. Təsisçilərin qarşılıqlı münasibətləri, hüquq və vəzifələri qanunvericiliklə, yaxud onların arasında bağlanmış müqavilə ilə və ya bu Nizamnamə ilə müəyyən edilir.
8.3. Birliyə üzvlərin qəbulu Birliyin İdarə Heyəti tərəfindən aparılır.
8.4. Birliyə daxil olmaq istəyən şəxslər Birliyin İdarə Heyətinə yazılı şəkildə müraciət etməlidirlər. Ərizəyə 1 (bir) ay müddətində baxılır. İdarə Heyətinin səsvermə nəticəsində İdarə Heyəti bu məsələyə müsbət münasibətini bildirdikdə, ərizəçi Birliyin üzvü seçilmiş hesab edilir və Birlik və üzv arasında müvafiq üzvlük müqaviləsi imzalanır.
8.5. Birliyin üzvləri öz aralarında bərabər hüquqlu olub aşağıdakı hüquqlara malikdirlər:

- bu Nizamnamədə və digər sənədlərdə nəzərdə tutulmuş qaydada təşkilatın idarəçiliyində iştirak etmək;
- Birliyin hər hansı seçkili, o cümlədən rəhbər orqanına seçmək və ya həmin orqanlarda təmsil olunmaq;
- Birliyin fəaliyyətində və təşkil etdiyi tədbirlərdə iştirak etmək;
- əlaqəli hüquqlarının və rəqəmsal şəbəkələrdə müəlliflik hüquqlarının istifadə edilməsi üzrə müvafiq qonorarı almaq;
- Birliyin rəhbər orqanlarının fəaliyyəti barədə məlumat almaq, fəaliyyətinə nəzarət etmək;
- öz mənafelərinin müdafiəsinə kömək göstərilməsi üçün Birliyə müraciət etmək;
- onun hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək, Birliyin müvafiq orqanlarına etirazını bildirmək və şikayət etmək.

8.6. Birliyin üzvü yalnız Birliyin müvafiq orqanları səlahiyyət verdikdə həmin orqanı təmsil edə və ya onun adından bəyanatla çıxış edə bilər.
8.7. Birliyin üzvləri aşağıdakı vəzifələri daşıyırlar:

- Birliyin Nizamnaməsinə, Birliyin qəbul etdiyi qaydalara, reqlamentlərə, daxili normativ sənədlərə əməl etmək;
- Birliyin məqsədlərinə nail olunmasına dəstək göstərmək;
- Birliyin nüfuzunu və əmlakını qorumaq, Birliyin əsas məqsəd və vəzifələrinin həyata keçirilməsinə mane ola biləcək fəaliyyət göstərməmək;
- Birliyin fəaliyyəti üçün müvafiq qərarların qəbul olunmasında iştirak etmək;
- konfidensial məlumatları açıqlamamaq;
- müəyyən olunmuş qaydada və miqdarda üzvlük haqqını ödəmək;
- repertuarında/kataloqunda baş verən hər hansı dəyişikliyi vaxtında Birlikdə qeydə almaq;
- Birliyin seçkili orqanlarının qərarlarını yerinə yetirmək;
- Nizamnamə tələblərinə riayət etmək;
- Birliyin tədbirlərində iştirak etmək.

8.8. Birliyə üzvlük haqqının miqdarı Birliyin Ümumi Yığıncağı tərəfindən müəyyən edilir.

8.9. Birliyə üzvlüyə aşağıdakı hallarda xitam verilir:

- könüllü olaraq Birliyin üzvlüyündən çıxdıqda;
- Birliyin üzvlüyündən xaric edildikdə;
- məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan şəxs olduqda;
- vəfat etdikdə və ya məhkəmə qərarı ilə onun ölmüş və xəbərsiz itkin düşmə üzrə elan olduğu halda;
- qanunvericilikdə nəzərdə tutulmuş qaydada hüquqi şəxs ləğv edildikdə.

8.10. Birliyin üzvü aşağıdakı hallarda üzvlükdən xaric edilir:

- Birliyin adına və etibarına ləkə gətirən hərəkətlərə yol verdikdə;
- mütəmadi olaraq Birliyin işində iştirak etməkdən boyun qaçırdıqda;
- Üzvlük haqqını 3 ay ardıcıl olaraq ödəmədiyi halda;
- Nizamnamə məqsədlərinə zidd hərəkət etdikdə.

8.11. Üzvlükdən xaric olunma İdarə Heyətinin qərarı ilə həyata keçirilə bilər.

8.12. Birlik üzvünün həmin qərardan Birliyin ali idarəetmə orqanına və məhkəməyə şikayət etmək hüququ vardır.

8.13. Üzvlükdən könüllü olaraq çıxmaq istəyən üzv, müvafiq ərizə ilə İdarə Heyətinə müraciət edir. İdarə Heyəti isə müraciəti qəbul edib baxdıqdan sonra müraciət edən şəxsin üzvlüyünə xitam verilməsi barədə qərar qəbul edir. Xitam barədə qərarla üzvlüyünə xitam verilən şəxsin Birliyin fəaliyyətindən əmələ gələn bütün hüquqlarına xitam verilir.

8.14. Üzvlüyünə istənilən əsasla xitam verilən şəxs tərəfindən ödənilmiş üzvlük haqları və digər vəsaitlər geri qaytarılmır.

8.15. Birlik üzvlərinin öhdəlikləri üçün, üzvlər isə birliyin öhdəlikləri üçün məsuliyyət daşımırlar.

## IX. BİRLİYİN ƏMLAKI VƏ MALİYYƏ FƏALİYYƏTİ

9.1. Birliyin mülkiyyətində binalar, qurğular, mənzillər, avadanlıqlar, inventarlar, pul vəsaitləri, səhmlər, digər qiymətli kağızlar və bu Nizamnamə ilə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.

9.2. Birlik öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.

9.3. Birliyin maliyyə və təsərrüfat fəaliyyəti bu Nizamnamə ilə müəyyən edilmiş məqsəd və vəzifələrin həyata keçirilməsinə istiqamətləndirilir. Birliyin əmlakının pul və digər şəkildə formalaşdırılması mənbələri aşağıdakılardır:

- təsisçilərin və ya Birlik üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;
- idarə, müəssisə, özəl şirkət, yerli təşkilatların verdikləri əmlak haqları, vətəndaşların könüllü verdikləri əmlak haqları, sponsorluq haqları və ianələri;
- səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;
- öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
- Birliyin təsərrüfat və sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir;
- qrantlar;
- sərgilərdən, konsertlərdən və digər tədbirlərdən əldə olunan gəlirlər;
- təsis etdiyi müəssisələrin fəaliyyəti nəticəsində əldə olunan gəlirlər;
- qanunvericilikdə qadağan olunmamış digər mədaxillər.

9.4. Birliyin üzvləri onun mülkiyyətinə daxil olan ayrı-ayrı obyektlər üzərində xüsusi hüquqlara malik deyil.

9.5. Birlik Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada öz fəaliyyətinin məqsədlərinə və əmlakın təyinatına müvafiq olaraq öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.
9.6. Birliyin hesabına daxil olmuş məqsədli vəsait başqa istiqamətlərdə xərclənə bilməz. Birlik siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz.
9.7. Birlik qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə, statistik və sair hesabatlar tərtib edir və dövlət orqanlarına təqdim edir.

## X. BİRLİYİN FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ

10.1. Birliyin fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ləğv edilməsi yolları ilə xitam verilir. Birliyin fəaliyyətinə xitam verilməsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.
10.2. Birliyin fəaliyyətinə xitam verilməsi haqqında qərara əsasən ləğvetmə komissiyası yaradılır. Bu andan Birliyin idarəçiliyi ilə əlaqədar bütün səlahiyyətlər ona keçir. Ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. Birliyin ləğvi zamanı büdcə ilə hesablaşmalardan və kreditorların tələbləri ödənildikdən sonra qalan əmlak qanunvericiliklə müəyyən olunmuş qaydada Nizamnamə məqsədlərinə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir. Birliyin ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına əsasən həyata keçirilir.

## XI. DİGƏR ŞƏRTLƏR

11.1. Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir.
11.2. Gələcəkdə bu Nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tətbiq edilir.
11.3. Nizamnaməyə əlavə və dəyişikliklər qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydiyyata alındıqdan sonra qüvvəyə minir.
11.4. Birliyin maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və həmin ilin 31 dekabrında başa çatır. Növbəti maliyyə illəri isə 1 yanvarda başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir.

Azərbaycan Respu
DƏFTƏRXANA
Notariat, qeydiyyat və reyestr baş idarəsi